**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:____________(kafedra müdiri)
Tarix: _______sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Azərbaycan ədəbiyyatı tarixi-2 |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və ədəbiyyatı |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavr |
| | **Kurs** | II |
| | **Semestr** | IV |
| | **Təlimçi** | Dosent Əli Həsənqulu oğlu Həşimov |
| | **e-mail** | |
| | **Telefon** | 070 365 81 65 |
| | **Dərs günləri və saatları** | I gün 1-ci saat, V gün 3-cü saat |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri<br>in Nəsiri. “Quş dili”. Bakı, 2009.<br>nməd.”Şəhriyar”. Bakı, 1978.<br>Hamid “ Seyfəlmülük” .Baki, Gənclik 1985.<br>Quluzadə. Böyük ideallar şairiş Bakı6 Gənclik, 1983<br>Səfərli. Məsihi. Bakı, 1987.<br>i. “Vərqa və Gülşa” Bakı, 1998.<br>”Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi”.Bakı, 1943<br>X.Yusifli, T.Bədəlova Məhcur Şirvani “Qisseyi-Şirzad” Bakı-2012 | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Azərbaycan ədəbiyyatı tarixi-2 fənnində XIII əsrdən XIX əsrəqədərki dövr Azərbaycan ədəbiyyatının keçdiyi yol, bu dövrün görkəmli şəxsiyyətlərinin həyatı, mühiti və yaradıcılığı öyrənilir. Orta əsrlər ədəbiyyatımızın inkişaf mərhələləri, şəxsiyyətləri, ədəbi-tarixi yaddaşda yaşayan bədii nümunələri, sənətkarların irsinin tədqiqi məsələləri ümumiləşmiş şəkildə tədris olunur. Orta əsr ədəbiyyatımıza məxsus olan saray ədəbiyyatı ənənələri, klassik ədəbiyyatımızın aparıcı istiqamətini təşkil edən təsəvvüf ideyelarıvə cərəyanları tədris dövrü ərzində öyrəniləcək. Həmçinin klassik ədəbiyyatımız və təsəvvüf cərəyanlarının öyrənilməsinə xüsusi diqqət yetiriləcək, Vaqif yaradıcılığından etirabən realizm ənənələrinin təşəkkülü məsələləri də diqqət mərkəzində saxlanılacaq. | |
| **Fənnin məqsədləri** | Bu fənnin məqsədi tələbələrə XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatını mənimsətmək, bu dövr ədəbiyyatımızın inkişaf qanunauyğunluqları, ədəbiyyatımızda müşahidə olunan klassik ədəbi ənənələr və bu ənənələr üzərində formalaşan XVIII əsrdəki realizm elementlərini mənimsətməkdir. | |
| **Öyrənmə nəticələri** | Kursun sonunda tələbələr bilməlidir ki, bu fənni öyrənməklə onların bədii zövqü formalaşır, görkəmli şəxsiyyətlərimizin həyatı yaradıcılığını öyrənirlər, ədəbi yaddaşda qalan bədii nümunələri mənimsəyirlər.<br>Kursun sonundakı öyrənmə nəticələri aşağıdakı şəkildədir:<br>-tələbələr kursun sonunda orta əsrlər Azərbaycan ədəbiyyatının inkişaf xüsusiyyətləri, klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin həyatı, mühiti, yaradıcılığını ümumiləşmiş şəkildə mənimsəyir; | |

<table>
<tr><td></td><td colspan="2">-XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının milli təfəkkürdəki ifadə imkanlarını mənimsəyirlər;<br>- Orta əsrlər ədəbi fikrinin formalaşmasına zəmin yaradan ictimai-siyasi, ədəbi-mədəni prosesləri mənimsəyirlər;<br>-Klassik ədəbiyyatımızın folklor qaynaqlarını mənimsənilir;<br>-Nəsimi, Xətai, Füzuli, vaqif kimi klassiklərin ədəbi təsir dairəsini, onların yaradıcılığının Şərq ədəbiyyatına təsirini mənimsənilir;<br>-Orta əsrlər ədəbiyyatımızda aparıcı xətt olan Saray ədəbiyyatı ənənələrini mənimsəyirlər;<br>Orta əsrlər ədəbiyyatımızın özəyini təşkil edən təsəvvüf quruluşlarını, həmçinin sufizm, hürufizmi mənimsəyirlər.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda tapşırıqlar verilir və müzakirə aparılır</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir</td></tr>
<tr><td>Simulyasiya</td><td>Tələbələrə dərsə aid fərdi tapşırıqlar verilməli və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir</td></tr>
<tr><td>Layihə</td><td>Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir</td></tr>
<tr><td>Digər</td><td></td></tr>
<tr><td rowspan="10">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>51 baldan aşağı – “qeyri kafi” – F<br>51 – 60 - “qənaətbəxş” – E<br>61 – 70 – “kafi” – D<br>71 – 80 – “yaxşı” – C<br>81 – 90 – “çox yaxşı” – B<br>91 – 100 – “əla”</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td>Qiymətləndirmə metodları</td><td colspan="2">Tapşırıqlar: Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb qiymətləndirilir.<br>1. Qazi Bürhanəddin və tuyuq janrı<br>2. Şah İsmayıl Xətai yaradıcılığında sufi panteist görüşlər<br>3. M.Füzulinin “Rindü Zahid” əsəri<br>4. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında nəsr<br>5. A.Ərdəbilinin “Fərhadnamə” əsəri ilə Nizami Gəncəvinin “Xosrov və Şirin” poemaları arasında oxşar və fərqli cəhətlər<br>6. İ.Həsənoğlu irsinin tədqiq tarixi<br>7. Əssar Təbrizinin “Mehr və Müştəri” poeması<br>8. İ.Nəsiminin hürufi poeziyasında “kamil insan” konsepsiyası<br>9.Klassik ədəbiyyatımızda “Leyli və Məcnun” motivləri</td></tr>
</table>

| | |
|---|---|
| | . 10. Vaqif və Azərbaycan ədəbiyyatında realizm |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
|---|---|---|---|
| **1** | 16.09.2022<br>19.09.2022 | **XIII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatının əsas inkişaf istiqamətləri. Azərbaycan dilində lirik və epik poeziyanın dövrümüzə çatmış ilk nümunələri. Şeyx İzzəddin Həsənoğlu, “Dastani-Əhməd Hərami”.**<br>Bu mühazirədə XIII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri, anadilli şerin yaranması, İzzəddin Həsənoğlu yaradıcılığının spesifikası, epik şerin inkişafı, “Dastani Əhməd hərami”nin sənətkarlıq məziyyətləri, mövzu və mündəricəsindən bəhs olunacaq. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **2** | 23.09.2022<br>26.09.2022 | **XIII-XIV əsrlərdə farsdilli Azərbaycan ədəbiyyatı. Şeyx Mahmud Şəbüstəri, Seyid Zülfüqar Şirvani, Hümam Təbrizi.**<br>Bu mövzuda XIII-XIV əsrlərdə farsdilli Azərbaycan poeziyasının inkişaf yolu, farsdilli poeziyanın Mahmud Şəbüstərinin, Hümam Təbrizinin, seyid Zülfüqar Şirvaninin həyatı və yaradıcılıq yolu, yaradıcılığının təsir dairəsi kimi məsələlər öyrədiləcəkdir. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **3** | 30.09.2022<br>03.10.2022 | **XIII-XIV əsrlərdə Nizami Gəncəvi ədəbi məktəbinin davamçıları. Əvhədi Marağalı, Əssar Təbrizi, Arif Ərdəbili.**<br>Mövzunun tədrisi zamanı Nizami ədəbi məktəbinin davamçıları sayılan Əvhədi Marağalı, Əssa Təbrizi, Arif Ərdəbilinin ömür və sənət yoluna nəzər salınmış, onların yaradıcılğına Nizami təsiri və yaradıcılığının fərdi cizgiləri, nəzəri keyfiyyətləri, ideya xüsusiyyətləri diqqət mərkəzində saxlanılacaqdır. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |

| | | | |
|---|---|---|---|
| **4** | 07.10.2022<br>10.10.2022 | **Poeziyanın inkişafı. Qazi Bürhanəddin, Şah Qasim Ənvar.**<br>Bu mövzuda anadilli şerin inkişafında xidmətləri olan hökmdar şair Qazi Bürhanəddinin mübarizələrlə dolu həyat yolu və yaradıcılığı, tuyuğları, özündən sonrakı ədəbiyyat təsir imkanları öyrədiləcək. Eləcə də dövrün istedadlı ədibi Şah Qasım Ənvarın yaradıcılıq yolu izlənərək ümumiləşdirmələr aparılacaqdır. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **5** | 14.10.2022<br>17.10.2022 | **Hürufi poeziyası. İmadəddin Nəsimi.**<br>Bu mühazirədə hürufizm cərəyanının yaranması, inkişaf dövrü, hürufi poeziyasının görkəmli siması olan İmadəddin Nəsiminin ömür və sənət yolu təhlil olunacaq, Nəsimi yaradıcılığının nəzəri məziyyətləri ilə yanaşı onun yaradıcılığında hürufizmin təbliği məsələləri şərh olunacaqdır | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **6** | 21.10.2022<br>24.10.2022 | **XV-XVI əsrlərdə Azərbaycan ədəbiyyatının əsas inkişaf meylləri. Xəlili, Süruri, Bəsiri, Bədr Şirvani.**<br>Bu mühazirə XV-XVI əsrlərdə Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri təhlil olunacaq, dövrün ədəbi simaları olan Bədr Şirvani, Bəsiri, Süruri, Xəlili kimi şairlərin yaradıcılıq yolu şərh olunacaqdır. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **7** | 28.10.2022<br>31.10.2022 | **Hamidi, Cahanşah Həqiqi, Kişvəri, Həbibi.**<br>Bu mühazirədə XV əsr Azərbaycan ədəbiyyatının qabaqcıl simaları olan Hamidi, Cahanşah Həqiqi, Həbibi, Kişvəri kimi sənətkarların ömür və sənət yolu şərh olunacaq, onların yaradıcılığının təsir imkanları, mövzu və ideya xüsusiyyətləri təhlil olunacaqdır. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **8** | 04.11.2022<br>07.11.2022 | **Şah İsmayıl Xətayinin həyatı və yaradıcılığı.**<br>Bu mövzuda anadilli şerimizin zirvəsi olan Şah İsmayıl Xətainin həyatı, mübarizələrdə keçən ömür yolu, yaradıcılığı təhlil olunacaq, onun yaradıcılığının fərdi, özünəməxsus cəhətləri diqqət mərkəzinə çəkiləcək, şairin yaradıcılığında təsəvvüfi ideyaların əksi məsələləri təhlil olunaraq öyrəniləcəkdir. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |

| | | | |
|---|---|---|---|
| **9** | 11.11.2022<br>14.11.2022 | **Məhəmməd Füzulinin həyatı və lirikası.**<br>Bu mühazirədə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin həyat yolu, lirikası, lirik əsərlərinin dili, üslubi imkanları, ədəbi təsir dairəsi, sənətkarlıq xüsusiyyətləri təhlil olunacaq, şairin irsinin tədqiq tarixi, Azərbaycan ədəbi fikrinə təsiri şərh olunaraq ümumiləşdiriləcək. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **10** | 18.11.2022<br>21.11.2022 | **Məhəmməd Füzulinin poemaları, bədii nəsri və tərcümələri.**<br>Bu mövzuda dahi şair Məhəmməd Füzulinin poema yaradıcılığı, onun poemalarının ədəbi fikir tariximizdəki yeri, fərdi xüsusiyyətləri, mövzu və ideyası, şərh olunacaqdır. Dahi şairin “Leyli və Məcnun” poeması təhlil olunacaq, əsərin özünəməxsus keyfiyyətləri diqqət mərkəzinə çəkiləcəkdir. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **11** | 25.11.2022<br>28.11.2022 | **Həqiri Təbrizi, Məhəmməd Əmani, Fədai.**<br>Bu mövzuda orta əsrlər ədəbiyyatımızın Həqiri Təbrizi, Məhəmməd Əmmani, Fədai kimi dəyərli simalarının ömür və sənət yolundan bəhs ediləcək, onların yaradıcılıq yolu izlənəcək, ədəbi təsir dairəsi təhlil olunacaqdır | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **12** | 02.12.2022<br>05.12.2022 | **XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatının əsas inkişaf meylləri. Məsihi, Saib Təbrizi.**<br>Mövzunun tədrisi zamanı XVII-XVIII əsrlər Azərbaycan ədəbi fikrinin inkişaf yolu izlənəcək, bu dövrün Məsihi, Saib Təbrizi kimi dəyərli sənətkarlarının ədəbi irsi və yaradıcılıq yolu şərh olunacaq Saib Təbrizi yaradıcılığında hind səpki məsələsi diqqət mərkəzinə çəkiləcəkdir. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **13** | 09.12.2022<br>12.12.2022 | **Qövsi Təbrizi, Nişat Şirvani, Məhcur Şirvani.**<br>XVII əsr Azərbaycan ədəbiyyatının görkəmli simaları olan Qövsi Təbrizi, Nişat Şirvani, Məhcur Şirvaninin ömür və sənət yolunu öyrənmək, onların yaradıcılığının ədəbi dəyəri, təsir imkanları, ədəbiyyatımıza qatdığı dəyəri aydınlaşdırmaqdır. | Ə.Səfərli, X.Yusifli “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi” Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008<br>“Azərbaycan ədəbiyyatı tarixi” 3-cü cild, Bakı – 2009, AMEA |

| | | | |
|---|---|---|---|
| **14** | 16.12.2022<br>19.12.2022 | **Molla Vəli Vidadi, Molla Pənah Vaqif.**<br>Mühazirədə XVIII əsr Azərbaycan ədəbiyyatında realizmin banisi sayılan Molla Pənah Vaqif və Molla Vəli Vidadinin həyatı, mühiti, ədəbi və ictimai fəaliyyətini öyrətmək, Vaqif və Vidadi yaradıcılığının Azərbaycan ədəbi fikir tarixindəki yerini və təsir imkanlarını tələbələrə başa salmaqdır əsas məqsəd. | Ə.Səfərli, X.Yusifli "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi" Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli "Azərbaycan ədəbiyyatı tarixi" Bakı -2008<br>"Azərbaycan ədəbiyyatı tarixi" 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| **15** | 23.12.2022<br>26.12.2022 | XVII-XVIII əsrlərdə bədii nəsr. "Şəhriyar" dastanı. Vəli Ərəşi və Möhsün Nasirinin yaradıcılığı.<br>Bu mühazirədə orta əsr Azərbaycan ədəbiyyatında bədii nəsrin inkişafı problemi, "Şəhriyar" dastanının bədi və nəzəri məziyyətləri ideya sənətkarlıq xüsusiyyətləri, Vəli Ərəşi və Möhsün Nasirinin həyatı və yaradıcılıq yolu təhlil olunacaqdır. | Ə.Səfərli, X.Yusifli "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi" Bakı – 1982, 1998<br>Ə.Səfərli, X.Yusifli "Azərbaycan ədəbiyyatı tarixi" Bakı -2008<br>"Azərbaycan ədəbiyyatı tarixi" 3-cü cild, Bakı – 2009, AMEA nəşri |
| | | | |
| | | **Fənn müəllimi:** | **dosent Əli Həsənqulu oğlu Həşimov** |